**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ÖZCAN MUSTAFA OĞLU AKKAYA**

# MƏHƏBBƏT DASTANLARINDA SÜJET VƏ QƏHRƏMAN

5719.01 – Folklorşünaslıq

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan- 2013**

**İş Naxçıvan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** Filologiya üzrə elmlər doktoru, professor **Məhərrəm Allahqulu oğlu Cəfərli**

**Rəsmi opponentlər:** Filologiya üzrə elmlər doktoru **Mahmud Qara oğlu Allahmanlı**

Filologiya üzrə fəlsəfə doktoru **Sədaqət Nəsir qızı Nemətova**

**Aparıcı təşkilat:** **AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr" şöbəsi**

Müdafiə: 25 yanvar 2013-cü il tarixdə saat $11^{00}$ da Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən FD 02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərçiyi, əsas bina, Böyük Akt zalı.

Avtoreferat 23 yanvar 2013-cü il tarixdə göndərilmişdir.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

**FD 02. 121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.CƏFƏROV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Xalq təfəkkürünün ifadəsi baxımından folklorun digər janrları ilə müqayisədə daha əhatəli olan hər hansı bir dastan çoxplanlı və çoxqatlıdır, tarixi yaddaş nöqteyi-nəzərindən etibarlı və dayanıqlıdır.

Eyni zamanda dastanlar barədə düşünmək yalnız qəhrəmanlıq dastanları barədə düşünmək deyil, həmçinin məhəbbət dastanları haqqında mülahizə yürütmək, onların ideya-bədii xüsusiyyətlərindən fayda götürmək deməkdir. Çünki xalqın qəhrəmanlıq ənənələrinin, döyüş qüdrətinin, vətən, torpaq müqəddəsliyi yolunda candan keçmək idealının ifadəsi olan qəhrəmanlıq dastanları ilə yanaşı xalqın mənəvi qüdrətini, səbir və dözümlülüyünü, öz məqsədi uğrunda sona qədər mübarizə aparmaq eşqini, inam, etibar və sədaqətini əks etdirən məhəbbət dastanları da yenilməz mənəvi sərvət kimi həmişə yaddaşlarda yaşamış və müxtəlif nəsillərin tərbiyəsində mühüm rol oynamışdır. Məhəbbət və qəhrəmanlıq dastanlarının səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsində süjet və qəhrəman problemi geniş imkanlara malikdir. Bu baxımdan məhəbbət dastanlarına elmi yanaşma son dərəcə aktualdır. Məhəbbət dastanlarının folklorumuzdakı yeri, rolu, semantik mahiyyəti ilə bağlı müxtəlif istiqamətlərdə onlarla tədqiqatın meydana çıxması da bununla bağlıdır. Digər tərəfdən, Azərbaycan məhəbbət dastanları daha çox nikbinlik faktoru ilə səciyyələnir. Hər halda belə bir elmi həqiqət mövcuddur ki, Azərbaycan folklor xəzinəsinə daxil olan əksər məhəbbət dastanları qəhrəmanların saf eşqini və məhəbbətini, bu amal uğrunda mübarizələrini əks etdirməklə yanaşı, nikbin sonluqla başa çatır. Beləliklə, hər iki əsas qəhrəman - qız və oğlan öz istəklərinə yetişir, bir-birlərinə qovuşur və həyatda xoş-firavan yaşamağa başlayırlar.

Bu yönümdən məhəbbət dastanlarında süjet və qəhrəman problemi xüsusi əhəmiyyət daşıyır. Lakin ayrı-ayrı müəlliflərin kitab və məqalələrində bu problemə ötəri toxunulmuş, vəhdətdə araşdırılmamış, bir-birini şərtləndirən amillər üzə çıxarılmamışdır. Məlumdur ki, məhəbbət dastanlarında qəhrəmanın bədii mövqeyi mühüm şərtlərdən biri kimi diqqəti cəlb edir. Bütün bunlarla bağlı elmi şərhini gözləyən problemlər mövzunun aktuallığını ortaya çıxarır.

Məhəbbət dastanlarımızda məqsədə yetmək üçün qəhrəmanlar cürbəcür maneələrlə də qarşılaşmalı olurlar. Hətta bəzi məqamlarda öz sevgisi uğrunda vuruşan oğlanın başı üzərində daim ölüm təhlükəsi olduğu

da bütün açıqlığı ilə görünür və bunlar dinləyicilərdə təəssüf hissi yaradır. Lakin xalq yaratdığı və arzularının ifadəsinə çevirdiyi qəhrəmanları heç zaman darda qoymur, onlara mübarizlik aşılayır və ümumi istəklərə uyğun olaraq yenə də nikbinlik öz təsdiqini tapmış olur. Məhz bu cəhətdən də, yəni nikbinlik, xoş əhval-ruhiyyə aşılamaq baxımından da Azərbaycan məhəbbət dastanlarının araşdırılması öz aktuallığını qoruyub saxlamışdır.

Yeni baxışın ortaya çıxması ilə dastanlarımızın tədqiqində yeni istiqamət özünə yol açmış, ciddi elmi əhəmiyyətə malik ideyalar ortaya çıxmışdır. Bu məsələlər də süjet və qəhrəman probleminə yeni aspektdən yanaşma zərurətini meydana qoymuşdur. Məlumdur ki, Azərbaycan məhəbbət dastanları bir dastan hadisəsi kimi epik folklorun poetik sistemində xüsusi çəkiyə malikdir.[1] Bu mövzunun aktuallığı ilə bağlı daha bir mühüm cəhət məhəbbət dastanlarında ifadə olunan insanın mənəvi qüdrətinin, inam və əqidə möhkəmliyinin üzə çıxarılmasıdır. Məhəbbət dastanları insanın tarixdə və müasir dünyada mənəvi zənginlik keyfiyyətlərinin həmişə eyni səviyyədə qaldığını toplum formada qoruyub nəsillərə ötürən mənəvi yaddaş kitabı və hadisəsidir.

Tarix dəyişir, dövr dəyişir, insanlar dəyişir, cəmiyyət yeniləşir, yeni texnologiyalar tətbiq olunur, amma insanın mənəvi dünyası tükənməz mənəvi dünya olaraq yenə də qalır. Ona görə də məhəbbət dastanlarının, o cümlədən bu dastanların ideya-poetik xüsusiyyətlərinin aşkarlanması, həmin müstəvidə süjet və qəhrəman əlaqələrinin ortaya çıxarılması yeni dövr insanının mənəvi dəyərlər mövqeyindən tarixi missiyasının da əzəli və əbədi olmasının sübutudur. Məhz bu cəhət də mövzunun aktuallığını səciyyələndirən əsas və vacib amillərdən biridir.

Qeyri-adi doğuluş, adqoyma, məlumdur ki, məhəbbət dastanı mətninə mifdən gəlir. M.Cəfərlinin yazdığı kimi, butavermə motivi də mifoloji akt olaraq üzə çıxır, strukturunda İnsan-Tanrı münasibətləri durur[2]. Süjet və qəhrəman probleminin tədqiqi bütün bunları aktuallaşdırır.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyektini Azərbaycan məhəbbət dastanları, o cümlədən "Tahir-Zöhrə", "Əsli-Kərəm", "Abbas-Gülgəz", "Valeh-Zərnigar", "Qurbani", "Aşıq Qərib", "Alı xan-Pəri", "Məhəmməd-Güləndam" kimi son dərəcə məşhur və tədqiqat üçün səciyyəvi olan dastanlar təşkil edir.

Tədqiqatın predmeti isə Azərbaycan məhəbbət dastanları əsas götürülməklə bu dastanlarda konkret olaraq süjet və qəhrəman problemi,

[1] Cəfərli M.A. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, s. 5.
[2] Cəfərli M.A. Dastan və mif. Bakı: 2001, s.92.

həmin problemlərin qarşılıqlı əlaqələridir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd dastan yaradıcılığımız üçün əhəmiyyətli olan Azərbaycan məhəbbət dastanlarının süjetini və bu süjetin ayrı-ayrı mərhələlərini, məhəbbət dastanlarının ideyası ilə bağlı olan bədii qəhrəman və bu qəhrəmanın səciyyəvi, ümumi xüsusiyyətlərini öyrənməkdir.

Dissertasiyada qarşıya qoyulan məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

–süjetin dastanların mövzu və ideyası ilə bağlılığını təhlil etmək;

–süjetdən əvvəl mövcud olan mərhələnin süjetlə əlaqələrini üzə çıxarmaq;

–süjetin ekspozisiya, düyün nöqtəsi (zavyazka), kulminasiya, düyünün açılışı (razvyazka), final mərhələlərini müəyyənləşdirmək və onların dastan mətni üçün əhəmiyyətini araşdırmaq;

–məhəbbət dastanlarında bədii qəhrəmanın mövqeyini şərh etmək;

–qəhrəmanın süjetdaxili hərəkətinin məzmununu aşkarlamaq;

–qəhrəmanın psixoloji aləmini və ona təsir edən amilləri üzə çıxarmaq;

–qəhrəmanın haqq aşiqliyinin süjetlə əlaqələrini aşkarlamaq.

**Tədqiqatın metodologiyası.** Tədqiqatda analitik filoloji, tarixi, müqayisəli metodlardan istifadə edilmişdir. Bununla yanaşı müasir folklorşünaslığın dastan yaradıcılığına həsr edilən monoqrafik araşdırmalarına, dastanşünaslığımızın təcrübələrinə, yeri gəldikcə türk xalqları və rus araşdırmaçılarının da tədqiqatlarına istinad edilmişdir.[1]

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan folklorşünaslıq tarixində dastan yaradıcılığı ilə bağlı tədqiqatlar daha ardıcıl və sistemli xarakter daşımışdır. Bu məsələdə görkəmli folklorşünas Məmmədhüseyn Təhmasibin xidmətləri xüsusilə danılmazdır. Onun "Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyası Azərbaycan dastan yaradıcılığının tarixi, mahiyyəti, ayrı-ayrı konkret nümunələri barədə aydın təsəvvür yaradır. Sırf məhəbbət dastanlarına gəldikdə isə filologiya üzrə elmlər doktoru, professor Məhərrəm Cəfərlinin tədqiqatlarını, o cümlədən "Azərbaycan

---

[1] Bax: Abdulqadir İ. Türk destanlarına genel bir bakış. Ankara: 1954, s.261 ; Aça M. Türk destanlarındakı Aşerme (Yerikleme) motifinin destan kahramanları üzerindeki ve hayvan ata (ecdat) inancıyla bağlantısı. «Milli Folklor» Dergisi, 1997, №34, s. 78-81 ; Artun Ş. Türk halk bilimi. İstanbul: Kitabevi, 2005, s. 487 ; Короглы Х.Т. Введение – Туркменские народные повести. М.: 1991, s. 9-11 ; Набиева А.В. Дастанное творчество Ашуга Хасполада // Kültür evreni (Всемирная культуры), Анкара: 2009, №2, с. 86-94.

məhəbbət dastanlarının poetikası" adlı monoqrafiyasını xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan məhəbbət dastanlarının öyrənilməsi işi müxtəlif istiqamətlərdə və müxtəlif səviyyələrdə aparılmışdır. Belə ki, Azərbaycan folklorşünaslığında aşıq sənəti ilə bağlı tədqiqatlarda məhəbbət dastanları barədə danışılmış və bu, əsasən, aşıqların dastan yaradıcılığı ilə əlaqədar fəaliyyətlərini əhatə etmişdir. Bu baxımdan H.Araslının, Q.Namazovun, P.Əfəndiyevin, M.Həkimovun, M.Qasımlının, M.Allahmanlının, Ə. Eldarovanın, S.Paşayevin, E.Məmmədlinin, H.İsmayılovun tədqiqatları seçilir və fərqlənir.

Azərbaycan məhəbbət dastanlarının öyrənilməsi bilavasitə məhəbbət dastanlarını araşdıran tədqiqatların da birbaşa mövzusu və predmeti olmuşdur. Belə ki, T.Xalisbəyli, S.Yaqubova, T.Salahov kimi folklorşünaslar bu sahədə mühüm işlər görmüşlər.

O ki qaldı Azərbaycan məhəbbət dastanlarında süjet və qəhrəman məsələsinə, bu problem indiyə qədər ayrıca və sistemli tədqiq olunmamışdır. Mövcud dissertasiyanın yaranması da məhz bu zərurətdən ortaya çıxmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan məhəbbət dastanları müxtəlif dövrlərdə, müxtəlif məsələlər ətrafında öyrənilsə də, bir çox məsələlər hələ də öz tədqiqini gözləməkdədir. Dissertasiyada ilk dəfə olaraq:

– Məhəbbət dastanlarında süjet və qəhrəman problemi sistemli və hərtərəfli şəkildə araşdırılır;

– Məhəbbət dastanlarındakı süjetin mərhələləri təyin edilir;

– Qəhrəmanın süjetdaxili hərəkəti və psixoloji aləmi müəyyənləşdirilir;

– Bədii qəhrəmanın haqq aşiqliyi süjetlə əlaqəli şəkildə təhlil olunur.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Məhəbbət dastanlarında süjet və qəhrəman probleminin öyrənilməsi ümumtürk folklorunda müəyyən məsələlərin həllinə, nəzəri ümumiləşdirilmələrin genişləndirilməsinə şərait yaratmışdır. Dastanşünaslıqla bağlı tədqiqatlar zamanı dissertasiyada irəli sürülmüş fikirlərdən, nəticələrdən yararlanmaq olar. Bütün bunlar tədqiqatın nəzəri əhəmiyyətini şərtləndirir.

Dissertasiyadan Azərbaycan folklorşünaslığına dair yeni mövzuların işlənməsində, folklor tarixi ilə bağlı oçerklərin hazırlanmasında, ədəbiyyat tarixinin yazılmasında istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdır. Dissertasiyanın məzmunu ilə bağlı məsələlər müəllifin bir monoqrafiyasında, jurnallarda nəşr olunan elmi məqalələrində öz əksini tapmışdır. Eləcə də beynəlxalq və ölkə miqyaslı konfranslarda çıxışlar edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, məqsəd və vəzifələri, metodologiyası, işlənmə dərəcəsi, elmi yeniliyi, praktik əhəmiyyəti, işin aprobasiyası, quruluşu haqqında danışılmışdır.

Tədqiqat işinin **"Azərbaycan məhəbbət dastanlarında süjet və onun mərhələləri"** adlanan birinci fəsli beş yarımfəsildən ibarətdir. **"Süjetönü mərhələ"** adlanan birinci yarımfəsildə nəzəri məsələlər şərh edilir, qeyd olunur ki, görkəmli folklorşünas M.Təhmasib yazır: "Aşıq tərəfindən ifa edilən hər bir dastan, əgər belə bölmək mümkündürsə, üç hissədən: ustadnamə, dastan özü, bir də sondakı duvaqqapmadan ibarət olur"[1]. Digər bir folklorşünas alim M.Cəfərli də öz tədqiqatında yazır: "Azərbaycan dastanının əsas kütləsində "ustadnamə - dastan özü – duvaqqapma" şəklində sıralanma mexaniki hadisə deyildir. Bu düzülüş sırası oturuşmuş dastançılıq ənənəsi olmaqla dərin semantikaya malikdir"[2]. Bu mənada süjetönü mərhələ deyəndə, şübhəsiz, söhbət ustadnamələrdən gedir və həmin məsələyə ögey münasibət bəsləmək olmaz. Belə ki, dastan ənənəsinə görə, məhəbbət dastanlarının əvvəlində bir-birinin ardınca üç ustadnamə verilir. Ustadnamələr hikmətamiz səciyyə daşıdığına görə həm dinləyicilərin diqqətini cəlb edir, həm də dastanın məzmununda rast gəlinəcək hadisələrə diqqətlə yanaşmanı zərurətə çevirir.

Görkəmli folklorşünas M.Təhmasib yazır ki, aşığın əsas dastana başlamazdan əvvəl dediyi ustadnamə hikmətamiz aforizmləri, ağıllı məsləhətləri dinləyicilərə çatdırmaq, onları tərbiyələndirmək kimi nəcib məqsədlərə xidmət edir. Elə bu mənada da məhəbbət dastanlarının süjetönü mərhələsini təşkil edən və ustadnamələrdən ibarət olan hissə bu dastanlar üçün kifayət qədər xarakterik məzmun daşıyır. Çünki həmin ustadnamələrdə

[1] Təhmasib M.H. Azərbaycan xalq dastanları. Bakı: Elm, 1972, s.62.
[2] Cəfərli M.A. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, s.13.

verilən müdrik kəlamlar və nəsihətamiz fikirlər həm dinləyiciləri özünə cəlb edir, həm də dinləyici onların məzmunu ilə dastanın məzmun və ideyası arasında müəyyən bağlılıqları asanlıqla sezir və duyur. Bu da onu göstərir ki, məhəbbət dastanlarındakı süjetönü mərhələ ilə süjetin, yaxud süjetin əsas mərhələlərinin üzvi bir əlaqəsi vardır.

**"Ekspozisiya və onun məzmun xüsusiyyətləri"** adlı ikinci yarımfəsildə göstərilir ki, Azərbaycan məhəbbət dastanlarında süjetönü mərhələdən sonra bilavasitə dastanın süjeti ilə bağlı olan ekspozisiya mərhələsi gəlir. Şübhəsiz, ekspozisiya mərhələsi hadisələrin inkişafı üçün başlanğıc nöqtəsidir və bu mərhələdə hadisə və əhvalatlar barədə tam olmasa da, müəyyən təsəvvür əldə etmək olur. Görkəmli folklorşünas M.Təhmasib yazır: "Məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, macəranı, əhvalatı əsasən dörd hissəyə bölmək olar:

I. Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi.

II. Qəhrəmanların, yəni aşiq və məşuqənin buta almaları.

III. Qabağa çıxan maneələr və onlara qarşı mübarizələr.

IV. Müsabiqə və qələbə"[1] .

Qeyd edək ki, bu məsələ ətrafında folklorşünas alimlər R.Qafarlı[2] və M.Cəfərli [3]öz tədqiqatlarında geniş bəhs etmişlər. Bütün mübahisələrə baxmayaraq, folklorşünas tədqiqatçıların hamısı məhəbbət dastanlarındakı süjeti, onun klassik ədəbiyyat nəzəriyyəsindəki mərhələlərini, yaxud da ona bənzər variantlarını tam yekdilliklə qəbul edirlər.

M.Təhmasibin bölgüsü baxımından məhəbbət dastanlarında qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi hissəsini özündə ehtiva edən ekspozisiya mərhələsinin özü də üç hissəyə bölünür: giriş, əsas hissə və nəticə. Onu da qeyd edək ki, bu hissələr bütün dastan yaradıcılığı üçün vacib şərt deyil. Amma hər halda onların hər üçünün də olması bütövlük və tamlıq yaradır.

"Tahir-Zöhrə" dastanının ekspozisiyasına aid giriş bundan ibarətdir ki, Qaraman şəhərində Hatəm Sultan və Əhməd Vəzir adlı iki qardaşın yaşaması, onlardan Hatəm Sultanın Qaraman şəhərinin padşahı kimi fəaliyyət göstərməsi, Əhmədin isə, adından göründüyü kimi vəzir olması

---

[1] Təhmasib M.H. Azərbaycan xalq dastanları. Bakı: Elm, 1972, s. 65.

[2] Qafarlı R.O. Mif və nağıl. Bakı: ADPU, 1999, s.137.

[3] Cəfərli M.A. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, s.26-27.

bildirilir. Amma onların heç birinin züriyyəti, yəni oğul-uşağı yox idi. "Günlərin bir günündə Əhməd Vəzir bikef, məlul oturub övlad dərdi çəkirdi. Bu zaman bir nurani dərviş daxil olub, salam verdi. Əhməd Vəzir salamın cavabını verəndən sonra qalxıb dərvişin kəşkülünə bir cəngə əşrəfi atdı. Dərviş cibindən bir alma çıxarıb Əhmədə verib dedi:

- Al, muradın hasil olar"[1].

Bu girişdə nikbin və xoş bir günün uzaqda olmadığı xəbər verilir və dinləyici elə həmin nikbinliyin və xoş günün sorağı ilə mətnə daha dərindən bağlanır. Yəni hadisələrin hansı istiqamətdə gedəcəyi, axırda nə olacağı barədə düşünür və daha çox öz xəyallarına qapılmağa başlayır.

"Tahir-Zöhrə" dastanında ekspozisiyanın əsas hissəsi dastanda nəql olunacaq hadisələrə marağı daha da artırır. Göstərilir ki, Əhməd Vəzir axşama qədər almaya tamaşa edir və axşam yatağına girib yatır: "Gecənin bir aləmində yuxusunda gördü ki, evin bir tərəfindən divar ayrıldı, haman alma verən nurani dərviş göründü. Dərviş üzünü Əhməd Vəzirə tutub dedi:

–Ey Əhməd Vəzir! Dünən sənə verdiyim almanı götürüb qardaşın Hatəm Sultanın hüzuruna gedərsən. Almanı tən ortasından iki yerə bölərsən. Bir parçasını sən öz arvadınla yeyərsən, bir parçasını da Hatəm Sultan öz arvadı ilə yeyər.

İnşallah hər ikinizin övladı olar.

Dərviş sözünü deyib qeyb oldu. Divar da ağız-ağıza gəlib bitişdi. Əhməd o saat yuxudan ayıldı, gördü heç kəs yoxdur, ancaq otaq ətir, ənbər qoxusu verir"[2].

Sonra Əhməd Vəzir bu əhvalatı öz arvadına danışır, almanı da götürüb qardaşının yanına gedir.

Bundan sonra ekspozisiyanın nəticəsi meydana çıxır. Həmin nəticə dastanda belə nəql olunur:

"Əhməd Vəzir qardaşının hüzuruna gəlib əhvalatı ona nağıl elədi. Almanı iki yerə bölüb yarısını qardaşına verdi, yarısını da özündə saxlayıb dedi:

–Qardaş, gəl almanı yeməmişdən qabaq bir əhd eliyək.

Hatəm Sultan dedi:

–O nə əhddir, söylə görək.

Əhməd Vəzir dedi:

–Qardaş, atanın övlada üç borcu var. Birinci tərbiyə, ikinci oxut-

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, s. 24.

[2] Yenə orada, s. 25.

maq, üçüncü evləndirmək. Bu üç borcu vacibdir ki, ata yerinə yetirsin.

Hatəm Sultan dedi:

–Qardaş, nə demək istəyirsən, açıq de.

Əhməd Vəzir dedi:

–Onu demək istəyirəm ki, əgər mənim oğlum, sənin qızın olarsa, sən qızını mənim oğluma verərsən, yox, mənim qızım, sənin oğlun olarsa, mən qızımı sənin oğluna verərəm.

Hatəm Sultan qardaşının fikrini bəyəndi. Əl-ələ verib əhd-peyman elədilər"[1].

Əslində bu əhd-peymanı hələ dünyaya gəlməmiş Tahir və Zöhrənin əhd-peymanı kimi də başa düşmək olar. Sadəcə burada olan fərq ondan ibarətdir ki, Tahir və Zöhrənin dili ilə deyilməli olanları onların ataları - Hatəm Sultan və Əhməd Vəzir söyləyirlər.

"Əsli-Kərəm" dastanında ekspozisiya mərhələsinin girişi elə ustadnamələrdən sonra başlayır və ciddi bir məlumat daşıyır. Burada göstərilir ki, "Gəncə şəhərində Ziyad adlı bir xan yaşayırmış. Onun çox gözəl xasiyyəti varmış. Heç kəsi özündən incitməzmiş. Kimsənin haqqını kimsədə qoymazmış. Müxtəsəri, rəiyyətini ədalətlə idarə edərmiş.

Deyirlər Ziyad xan özünü elə aparırmış, onu tanıyanlar zənn edirmişlər ki, dünyada onun qədər xoşbəxt adam yoxdur. Ancaq ad-sanın, var-dövlətin olmasına baxmayaraq, Ziyad xan da dərddən-qəmdən xali deyilmiş. Allah ona övlad vermirmiş. Övladsızlıq Ziyad xanı tez-tez pərişan edirmiş.

Mətndən bəlli olur ki, övlad arzusu ilə yaşamaq baxımından Ziyad xan tək deyil. Başqa sözlə, Ziyad xanın xəzinədarı olan Qara Keşiş də övlad həsrəti ilə alışıb yanır: "Ziyad xanın Qara Keşiş adlı bir xəzinədarı var imiş. O da Ziyad xan kimi övlad üzünə həsrət imiş. Həmdərd olduqları üçün Ziyad xanla Qara Keşişin söhbəti yaxşı tutarmış. Onlar tez-tez görüşüb bu barədə dərdləşərmişlər. Yaxşı deyiblərmiş ki, su axıb çuxurunu tapıbmış"[1]. Girişə daxil olan hər iki məlumat kifayət qədər aydın olmaqla bərabər, həmçinin dinləyicidə dastanın mətnində özünə yer tutan hadisələrin hansı istiqamətə gedəcəyi barədə də müəyyən təsəvvür yaradır.

Ekspozisiyanın nəticə hissəsi bilavasitə süjetin inkişafını, dinamizmini müəyyən edir. Bu mənada görkəmli folklorşünas İsrafil Abbaslı da "Qurbani" dastanı ilə bağlı yazır: "Gəncədən toplanmış "Qurbani" özgə xalq dastanlarında tez-tez təsadüf olunan adi hadisə ilə başlayır. Hüseynəli

[1] Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, s. 71.

xan ata malından qalan bütün var-dövləti ələ keçirib qardaşı Mirzəli xana heç nə vermir. Kasıb güzəran keçirən Mirzəli xanın övladı olmur. Nəhayət, o, pirə gedib qurban kəsir, bununla da oğlu doğulur ki, adını Qurbani qoyurlar. Dastandakı süjetin inkişafı da bu hadisədən sonra başlayır."

Ekspozisiyanın əsas hissəsində isə Hacı Sayadın arvadının hamilə olmasından, onun əvvəlcədən söz verdiyi kimi dediyinə əməl edib Qanlı çaya körpü salmasından, əkiz uşaqlarının-bir oğlunun və bir qızının dünyaya gəlməsindən danışılır. Hələ bu kifayət deyilmiş kimi, Hacı Sayadın özünün məscidin hücrəsindən başqa bir oğlan uşağı tapıb evə gətirməsindən bəhs olunur. Amma arvad məsciddən tapılmış uşağa süd verməkdən imtina edir və onun saxlanması üçün qonşuluqdakı Xanı qarıya verilməsini israr edir.

Birinci fəslin üçüncü yarımfəsli **"Düyün nöqtəsi süjetdə təkan mərhələsidir"** adlanır.

Azərbaycan məhəbbət dastanlarının süjet mərhələləri hadisələrin inkişafında keçici həlqələr olsalar belə, onların hər birinin öz yeri və öz xüsusiyyəti vardır. Bu baxımdan süjetdə ekspozisiyadan sonra gələn düyün nöqtəsi bəzi mənbələrdə "zavyazka" kimi də göstərilir. Ancaq onun hansı ad altında göstərilməsinə baxmayaraq, düyün nöqtəsi (zavyazka) süjetin inkişafında təkan mərhələsidir. Yəni bundan sonra həm bədii konflikt yaranır, həm hadisələrin hansı istiqamətdə gedəcəyi bəlli olur, həm də hadisələrə olan dinləyici marağı daha da güclənir.

Azərbaycan məhəbbət dastanlarının parlaq nümunələrindən olan "Valeh-Zərnigar" dastanı da spesifik düyün nöqtəsinə malikdir. Dastanda Valehin Zarnigarın arxasınca getmək barədə fikri bilinən kimi ekspozisiya başa çatır və süjetdə düyünün bağlanmasına doğru istiqamət başlayır. Məsələ burasındadır ki, Valehin Səmənd adlı bir dostu var idi və qoca bir qarı öz nəvəsini Səməndə vermək üçün onu Valehdən ayırmaq istəyirdi.

Tədqiqat göstərdi ki, konfliktin gərginliyi birbaşa maneələrin ciddiliyi və çətinliyi ilə şərtlənir.

**"Kulminasiya iki aşiqin sınağının zirvəsidir"** adlanan dördüncü yarımfəsildə deyilir ki, Azərbaycan Məhəbbət dastanlarında süjetin inkişafının ən səciyyəvi mərhələlərindən biri kulminasiyadır. Əslinə qalsa, istər nağılların, istərsə də dastanların söyləyici tərəfindən ifası zamanı həm söyləyicinin, həm də dinləyicilərin əsas diqqəti kulminasiya nöqtəsinə yönəlir. Çünki zirvə nöqtəsi kimi başa düşülən kulminasiya mərhələsində dastanın əsas məzmunu və mahiyyəti ortaya çıxır, nəql olunan hadisələrə aydınlıq

---

[1] Abbaslı İ. Ön söz. (Azərbaycan ədəbiyyatı inciləri). Bakı: Yazıçı, 1987, s.14-15.

gətirilir və qəhrəmanlar haqqında tam təsəvvür yaranır. Kulminasiyanın gücü dastanın gücü, kulminasiyanın gücsüzlüyü dastanın gücsüzlüyü deməkdir.

"Tahir və Zöhrə" dastanında zirvəyə gedən yol Zöhrənin məktəbdən ayrılması və Hatəm Sultanın Zöhrəni Tahirə verməməsi ilə bağlıdır. Amma bu yol o qədər də sadə olmur. Başqa sözlə, ölüm və qətllərlə müşayiət edilir. Hatəm Sultan Əhməd Vəzirin böyük nüfuz sahibi olmasından qorxuya düşüb həm onu, həm də Tahir Mirzəni aradan götürməyi qərar verir. Əhməd Vəziri isə öz əlləri ilə öldürür. Onu aldadıb yanına çağırır və xəncəri ürəyinin başına sancır.

Cəllad Qasım isə Tahir Mirzəni öldürmək istəyəndə Tahir cəllada yalvarır ki, onu öldürməsin. Cəlladın rəhmi gəlir və deyir ki, o qaçıb canını qurtarsın. Tahir qaçıb gizlənir və bir neçə gündən sonra yol kənarında olan adamlar onu tanıyır və məsləhət görürlər ki, Zöhrədən əl çəksin, əks halda Hatəm Sultan onu öldürəcək.

Azərbaycan məhəbbət dastanlarında bir çox cəhətlər vardır ki, onlar üst-üstə düşür, bir-birlərini təkrarlayır və daha geniş mənada biri digərini tamamlayır. Bu cəhəti qəhrəmanların məhəbbət uğrunda fədakarlığı, Aşiq və Məşuqun sədaqəti və dözümü, əksər dastanlardakı xoş sonluq və duvaqqapmalar tam təsdiq edir. Bütün bunlar elə tipoloji oxşarlıqlardır ki, onlara əsaslanaraq Azərbaycan məhəbbət dastanlarının ən ümumi keyfiyyətlərini aşkarlamaq mümkündür. Belə amillərdən biri də dastanların süjetindəki düyünün açılışı və finalla bağlıdır. Yəni başqa sözlə, əksər məhəbbət dastanlarında süjetlə bağlı olan düyünün açılışı və final üst-üstə düşür. Onları **"Süjetin inkişafında düyünün açılışı və final"** adlı yarımfəsildə araşdırmaq zərurəti də məhz buradan irəli gəlmişdir.

Dissertasiyanın ikinici fəsli **"Məhəbbət dastanlarında qəhrəmanın bədii mövqeyi"** adlanır.

Azərbaycan məhəbbət dastanlarına məxsus zəngin ideyalar sisteminin və məna, məzmun dərinliyinin, struktur-poetika imkanlarının öyrənilməsi işində süjetlə yanaşı və ondan heç vaxt az əhəmiyyətli olmayan qəhrəmanın bədii mövqeyinin açılışı və təhlili də mühüm rol oynayır. Bu yönümdən aparılan araşdırmalar nəzər-diqqəti cəlb edir[1]. Amma unutmaq olmaz ki, qəhrəmanın bədii mövqeyi dastanın digər obrazları ilə təcriddə, əlahiddə

[1] Bax: Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, s. 272 ; Allahmanlı M. Türk dastan yaradıcılığı, Bakı: Ağrıdağ, 1998, s.142 ; Akkaya Ö. Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın psixoloji aləmi// Bilimsel Eksun, 2010, № 2, s. 223-230 ; Eldarova A. Azərbaycan aşıq sənəti. Bakı: Elm, 1996, s. 65; İsmayılov H.Ə. Türk dastanlarının funksional struktur poetikasına dair//Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XIV kitab, Bakı: Səda, 2006, s. 3-16 ; Salahov T. «Əsli-Kərəm» dastanı və Kərəmin şəxsiyyəti//API-nin əsərləri, 1971, №1, s.118-121.

götürülmüş bədii qəhrəmanla, onun arzu və istəkləri ilə deyil, xalq dastanlarının digər mühüm və həlledici komponentləri ilə də bağlıdır. Bu komponentlər içərisində isə ən aparıcısı və ümdəsi süjetdir ki, qəhrəmanın bədii mövqeyi dastanların süjeti ilə qovuşuqda və vəhdətdə meydana çıxır, bu mövqe özünü tam şəkildə, bütün tərəfləri ilə birgə büruzə verir.

Məhəbbət dastanlarındakı qəhrəmanların bədii mövqelərinin miqyas və əhatəsinə gəldikdə isə bu, daha geniş bir mənzərəni əhatə edir. Hər halda bu mənzərə qəhərəmanları dinləyicilərə və oxuculara yaxınlaşdırmaq, sevdirmək, qəhrəmanları onların yaddaşına hopdurmaq kimi aparıcı funksiyalar daşıyır. Konkret nəticəyə gəldikdə isə qəhrəmanın bədii mövqeyi bir sistem kimi nəzərdə tutulmalıdır və buraya qəhrəmanın süjetdaxili hərəkəti, qəhrəmanın psixoloji aləmi və qəhrəmanı daha çox tanıtdıran, məşhurlaşdıran, ona əsl həyat vəsiqəsi verən haqq aşiqliyinin süjetlə əlaqəsi kimi aktual, vacib və zəruri məsələlər daxildir.

Qəhrəmanlıq dastanlarında olduğu kimi, məhəbbət dastanlarında və digər folklor janrlarında qəhrəmanın süjetdaxili hərəkəti həmişə diqqət mərkəzində olmuş və tədqiqatçılar üçün ciddi maraq doğurmuşdur[1]. Şübhəsiz, süjetdaxili hərəkət bilavasitə dastandakı məkan dəyişmələri ilə əlaqədardır. Başqa sözlə, şifahi xalq ədəbiyyatı nümunələrində zaman dəyişmələri kimi, məkan dəyişmələri də bu nümunələrin ayrılmaz xüsusiyyəti səviyyəsində özünü göstərir. Heç də təsadüfi deyil ki, qəhrəmanın məkanlararası hərəkəti bəzən fiziki anlamda yox, düşüncə sferasında da özünəməxsus şəkildə həllini tapır. Necə ki, "nağılçı dili yüyrək olar", "az getdilər, üz getdilər, dərə-təpə, düz getdilər" kimi ifadələr mənzil başına qəhrəmanın sürətlə çatmasını əsaslandıran amillərdəndir. Yəni folklor nümunəsini, o cümlədən məhəbbət dastanlarını da məkan dəyişmələrsiz təsəvvür etmək son dərəcə çətin və ağlasığmazdır.

Azərbaycan məhəbbət dastanlarında olan məkan dəyişmələri zaman dəyişmələri ilə müşayiət olunsa da, məkan aspektindən, məkan nöqteyi-nəzərindən yanaşdıqda bu dəyişmələrin hər birinin öz xarakteri və özünəməxsus xüsusiyyətləri vardır. Bu xarakter və xüsusiyyətlər bir

---

[1] Bax: Babayev R. Naxçıvan folkloru: bəşərilik, türklük, regionallıq. Bakı: Elm, 2008, s.144 ; Bayat F. Etnik-mədəni kontekstdə türk dastanları//Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqatlar, XXVI kitab, Bakı: Nurlan, 2007, s. 3-23 ; Bayat F. Keçmişlə üzləşmə, başlanğıcı təkrarlama, gələcəyə hazırlanma qanunu olaraq xatırlama//Dədə Qorqud, Bakı: Nurlan, 2011/1, s. 19-30 ; Cəfərli M.A. Aşıq ədəbiyyatında buta // Ozan dünyası, 2010, №2, s. 31-36 ; Cəfərli M.A. Azərbaycan məhəbbət dastanlarının strukturu ümumtürk dastançılığı kontekstində//Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XI kitab. Bakı: 2002, s. 111-118 ; Əliyeva X. Məmmədhüseyn Təhmasib dastan yaradıcılığı haqqında//Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XVIII kitab. Bakı: Səda, 2005, s. 139-153.

tərəfdən janr etibarilə dastan tipinin mahiyyətini açır, bir tərəfdən şifahi xalq ədəbiyyatı silsiləsindən olan həmin nümunələrin epik ənənəyə uyğunluğunu sübuta çatdırır, digər tərəfdən də məhəbbət dastanlarının qəhrəmanları ilə bədii süjet arasındakı təmas nöqtələrini ortaya qoyur. Başqa sözlə, zaman da, məkan da, qəhrəmanda bir silsilə daxilində özünə yer tutur və bir müstəvi üzərində, bir mövqeydən dastanın ideyasına xidmət göstərirlər.

Bu deyilənlərə konkret yanaşmış olsaq, Azərbaycan məhəbbət dastanlarının maraqlı nümunəsi olan "Tahir-Zöhrə" dastanında süjetin ekspozisiya mərhələsinə aid olan məkan dəyişməsi o qədər də nəzərə çarpmır və genişmiqyaslı deyil. Yəni burada əsas hərəkət məktəb - ev, yaxud da ev - bağça arasında cərəyan edir. Başqa sözlə, qəhrəmanlar evdən məktəbə, məktəbdən evə hərəkət edirlər. Bu mənada dastanm mətnindən sadə bir məqamı xatırlamaq yerinə düşər: "Tahirlə Zöhrə bir yerdə məktəbə gedib gəlirdilər, bir-birindən ayrı dura bilmirdilər. Belə-belə gəlib on beş yaşa çatdılar"[1]. Yəni qəhrəmanların on beş yaşına qədər əsas hərəkət dairəsi məktəb və ev arasında dövr edir. Həmin dövretmədən bir azca kənara çıxmalar da ciddi bir məkaıı dəyişməsini nişan vermir. Məsələn, dastanda deyilir ki, Zöhrə "Tahir ilə bir oturub, bir durardı. Oyun vaxtı da uşaqlara qatışmazdı, hər ikisi çəkilib bir küncdə söhbət edərdilər. Məktəbin həyətində bir sərv ağacı vardı. Hansı tez gəlsə, onun dibində oturab, o birini gözlərdi"[2]. Burada da məkan genişlənməsi məktəbin həyətinə qədər, yəni məktəbin həyətiındəki sərv ağacına qədərdir. Əslində isə o qədər də böyük bir ərazini əhatə etmir.

Bütün bunlara görə də birinci yarımfəsildə əsas diqqət **qəhrəmanın süjetdaxili hərəkətinə** yönəldilmişdir. Süjetdaxili hərəkəti qəhrəmanın hansı nöqtədən fəaliyyətə başlamasını, məkan dəyişmələrinin necə vüsət götürməsini, hərəkət marşurutunun hansı şəhərlərdən keçməsini tam aydınlığı ilə ortaya qoyur və bu məkan dəyişmələrinin qəhrəmana və hadisələrə təsirlərini canlandırmış olur. Qəhrəmanın süjetdaxili hərəkəti onun öz istəyi və istəklisi uğrunda mübarizəsinin xəritəsidir.

Qəhrəmanın psixoloji aləminin üzə çıxarılması isə onun süjetdaxili hərəkətinin məntiqi davamıdır. Faktlar göstərir ki, məhəbbət dastanlarında baş qəhrəman sxematik deyildir. Hətta bir məhəbbət dastanındakı baş qəhrəmanın əsas xüsusiyyətlərinin digər məhəbbət dastanlarındakı baş qəhrəmanın əsas xüsusiyyətləri ilə üst-üstə düşməsinə baxmayaraq, onların

[1] Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, s.26.
[2] Yenə orada, s. 26.

hər biri öz spesifik cəhətləri, ilk növbədə isə fərqli mənəvi aləmi və psixologiyası ilə diqqəti cəlb edir. Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın psixologiyası sevginin və məhəbbətin təsiri ilə formalaşan bir psixologiyadır.

İkinci fəslin **"Qəhrəmanın psixoloji aləmi"** adlanan ikinci yarımfəslində bu məsələlər öz geniş şərhini tapır. Tədqiqat göstərir ki, qəhrəmanların psixologiyasının kifayət qədər zəngin olması onları real həyata yaxınlaşdırır, birini digərindən fərqləndirir.

Üçüncü yarımfəsil **"Qəhrəmanın haqq aşiqliyi və onun süjetlə əlaqəsi"** adlanır. Haqq aşiqliyi təsadüfi xarakter daşımır və dastanın mətnində təbii, qanunauyğun formada reallaşır. Bununla da baş qəhrəman rəqiblərini sıradan çıxarır, ona inanmayanları inandırır və öz mübarizəsində ardıcıl olduğunu sübuta çatdırır. Daha əhəmiyyətli cəhət isə ondan ibarətdir ki, tədqiqat zamanı sübut olunmuşdur ki, məhəbbət dastanlarındakı haqq aşiqliyi süjetdəki kulminasiya mərhələsinin üzə çıxardığı məzmun və mahiyyətdir.

**Tədqiqatın nəticələrini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:**

Azərbaycan məhəbbət dastanlarında süjet və qəhrəman probleminin araşdırılması, ilk növbədə, bu dastanlara yenidən qayıtmağın, onları yenidən təhlilə cəlb etməyin zəruriliyini və vacibliyini təsdiq etdi. Araşdırma göstərdi ki, yaxın və uzaq dövrdə, yəni hansı əsrdə yaranmasma baxmayaraq, "Tahir-Zöhrə", "Əsli-Kərəm", "Qurbani", "Aşıq Qərib", "Abbas-Gülgəz", "Valeh-Zərnigar", "Alı xan-Pəri" kimi məhəbbət dastanları, bütövlükdə xalq düşüncəsinin məhsulu olan folklor irsi ölməz və həmişəyaşardır. Başqa sözlə, tədqiqat mənəvi keçmişimizin dəyərləndirilməsi işinin müasir əhəmiyyətini üzə çrxardı, Azərbaycan məhəbbət dastanlarının ideya-poetik xüsusiyyətlərinin təsir imkanlarının tükənmədiyini bir daha sübuta çatdırdı.

Hər şeydən qabaq birinci fəsli ehtiva edən məhəbbət dastanlarının süjet mənzərəsi faktlar və dəlillər vasitəsilə tam şəkildə canlandırılmış, xalq təfəkkürünün və xalq fıkrinin öxünəməxsusluğu ortaya qoyulmuş və onun ifadə imkanları üzə çıxarılmışdır. Bəlli olmuşdur ki, məhəbbət dastanlarının süjetindəki ilkin mərhələ kimi özünü göstərən ekspozisiya mərhələsi sxematizmdən çox uzaqdır. Ənənəvi folklorşünaslıqda ekspozisiya mərhələsi bir vahid kimi alınmış və bundan əlavə hadisələrin inkişafında hazırlıq mərhələsi yükünü daşıdığına görə o qədər də geniş elmi baxışın obyekti ola bilməmişdir. Əslinə qalsa, məhəbbət dastanlarındakı ekspozisiya süjetin digər mərhələləri ilə sıx tellərlə bağlanır və ideya-poetik

mahiyyətin açılmasında öz xüsusi rolunu oynayır. Buna görə də tədqiqat nəticəsində ekspozisiya üç hissəli bir mərhələ kimi meydana çıxmış və dissertasiyada süjetin ayrılmaz bir vahidi kimi təqdim olunmuşdur. Həmin hissələr girişdən, əsas hissədən və nəticədən ibarətdir. Qəhrəmanın doğulması, ona buta verilməsi və qəhrəmanın öz butası arxasınca getmək qərarını verməsi ekspozisiyanı əhatə edir. Burada qəhrəmanın doğulması ekspozisiyanın girişinə, qəhrəmana butanın verilməsi ekspozisiyanın əsas hissəsinə, qəhrəmanın öz butası arxasınca getməsi isə ekspozisiyanın nəticəsinə aiddir.

Dissertasiyada düyün nöqtəsi süjetin təkan mərhələsi kimi səciyyələndirilmişdir. Artıq burada qəhrəman, yəni Aşiq öz butası, yəni Məşuqu ilə görüşür, onlar bir-birlərinə öz məhəbbətlərini yenidən bildirirlər. Bu hadisə ətraf mühitdə də geniş yayılır, lakin hadisələr heç də qəhrəmanların istədikləri kimi davam etmir. Bunun da səbəbi ondan ibarətdir ki, ortaya müəyyən maneələr çıxır, Aşiq və Məşuqun bir-birinə qovuşması müşkülə düşür. Əslində süjetdəki düyün nöqtəsinin təkan funksiyası daşıması amili də məhz buradan törəyir. Çünki Aşiq və Məşuqun istəyinin tez reallaşması dastanın və konfliktin yaranmaması demək olardı. Bu baxımdan düyün nöqtəsi və buradakı şəxsi, yaxud ictimai maneələr süjetə və geniş mənada dastana xidmət edən amildir.

Tədqiqat göstərdi ki, konfliktin gərginliyi birbaşa maneələrin ciddiliyi və çətinliyi ilə şərtlənir.

Azərbaycan məhəbbət dastanlarındakı süjetin kulminasiya nöqtəsi dastanın özəyini təşkil edir. Çünki burada sevənlərin bir-birinə qovuşub-qovuşmaması sualı qoyulmuşdur. Həmin sual ətrafında cərəyan edən hadisələr həm maraq kəsb etməsi gücünə görə, həm də dastanın formalaşması şərti kimi özünü göstərdiyinə görə söyləyicidən daha çox diqqət və həssaslıq tələb edir. Bu mərhələdə sınaqlar güclənir, baş qəhrəmanın dözümü, ağlı, fərasəti və qabiliyyəti yoxlanılır. Qəhrəman öz qələbəsi ilə süjetdəki kulminasiyanın da zirvə nöqtəsini təmin etmiş olur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Məhəbbət dastanları: süjet və qəhrəman (monoqrafiya). Bakı: ADPU, 2011, 230 s
2. Azərbaycan məhəbbət dastanlarında zirvə nöqtəsi / Elmi axtarışlar, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, V / 2008, toplu, Bakı, "Nurlan", 2008, səh. 46-51
3. Qəhrəmanın haqq aşiqliyi və onun süjetlə əlaqəsi // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, 2009, №2 (27), səh. 141-145
4. Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın süjetdaxili hərəkəti // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, 2010, №2 (33), səh. 117-122
5. Azerbeycan muhabbet destanlarında hak aşıklığı motifi // Çankırı Karatekin Üniversitesi, Sosyal Bilimler Enstitüsü dergisi, cild 1, sayı 2, Kasım 2010. Türkiye-Çankırı, səh. 1-10
6. Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın psixoloji aləmi // "Bilimsel Eksen" Bilim Kültür Araştırma Dergisi, Türkiye-Ankara: 2010, sayı 2., səh. 223-229
7. Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın sevgisi // "Yaprak" Beynəlxalq Kültür Sanat, Ədəbiyyat və Folklor dərgisi, İran-Təbriz: sayı 2, 2011, səh. 11-16
8. Məhəbbət dastanlarında ekspozisiya və məzmun xüsusiyyətləri "Azərbaycanşünaslığın aktual problemləri" - Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları, 4-7 may 2011-ci il, Bakı-Gəncə, səh. 319- 327.
9. Azərbaycan məhəbbət dastanlarındakı aşiq ilə məşuqun sevgisinin Anadoludakı yansımaları / Uluslararası Aras Havzası Sempoziumu, Türkiyə, Iğdır: 13-15 aralık, 2011, 294-298.
10. Экспозиция и ее сюжетные особенности в любовных эпосах // Вестник Казахского Национального Униве6рситета имени Аль-Фараби. серии филология, № 3 (133), 2011, стр. 229-233

Озджан Мустафа оглы Аккая

# ГЕРОЙ И СЮЖЕТ В ЛЮБОВНЫХ ЭПОСАХ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы. Во введении обоснована актуальность темы, указаны объект, предметы, цели, задачи, практическое значение исследования, методологическая основа работы, сформулированы практическая и теоретическая значимость работы.

Первая глава диссертации, называется «Сюжет и его этапы в любовных эпосах Азербайджана» и состоит из пяти полу глав; «Предсюжетный этап», «Экспозиция, и её текстологические характеры», «Завязка точки этап толчка», «Кульминация-вершина испытаний двух влюблённых», «При развитии сюжета, открытие завязки и финал».

Сюжет в любовных эпосах в первой очереди привлекает внимание со своей естественности и простаты. А это в свою очередь является основным фактором для усвоения его со стороны публики при исполнении эпосов.

В первой главе сюжет и его этапы исследуется по этим направлениям, проблемы и задачи обосновываются конкретными фактами. Результат исследования этого фактора заключается тем, что сюжетные этапы любовных эпосов являющихся временные элементы, но по каждому из них свои характеры и места в этом эпосе.

Вторая глава, которая называется «Художественная позиция героя в любовных эпосах» исследуются по направлениям «Внутрисюжетные действия героя», «Психологический мир героя», «Истинная любовность героя и его связь с сюжетом». В этих полу глав к художественным позициям героя старались подходить, как целая система и были разобраны внутрисюжетные действия, психологический мир героя, его знаменитость, слава, истинная любовность в связи с сюжетом. Все эти проблемы были научные исследованы, как актуальные, важные и необходимые проблемы. В результате выявлены что, в любовных эпосах эпоха и пространство, сюжет и герой помещаются внутри одного цепа и над одном же линии заслужит идеи эпоса.

В заключении обобщены результаты, полученные в ходе исследований.

Ozcan Mustafa oglu Akkaya

# PLOT AND HERO İN LOVE EPOSES

## SUMMARY

The thesis is consists of entrance, two chapters, result and the list of used literature.

In the entrance part it is talked about the urgency of the subject, object of the investigation, subject, aim and duties, scientific innovation of the thesis. In here it has been given information about the methodology, practice necessary, approbation and the system of the thesis.

The first chapter of the thesis is called “Plot and its stages in Azerbaijan love eposes”. This chapter consists of five half chapter: “Plot front stage”, “Exposition and his maintenance features”, “Knot point is push stage in the plot”, “Culmination is the top of the test of the two lovers”, “Opening of the knot point in the development of the plot and final”.

The plot in love eposes first involve for attention for its naturalness and simplicity. And it is one of the main factors of performance and understanding by listeners of the eposes.

In the first chapter plot and its stages is investigating by this side and the stages are grounded by real facts. It has been coming so result that though the plot stages of the love eposes are the transient rings but each of them has its own place and features. The second chapter is called “Art position of hero in love eposes”. In here the following facts have been investigated: “Plot inside motion of hero”, “Psychological world of hero”, “God love of the hero and its connection with plot”.

In here the author has been learned the art position of the hero as a system, his plot inside act, psychological world. The urgency, importance, God love of hero which makes him famous connection with plot is explained. The author became so result that in love eposes time, place, plot the hero are on the same chain and they are together serve to the idea of the epos in the on flatness.

Getting scientific results are generalized in the result part.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ОЗДЖАН МУСТАФА ОГЛЫ АККАЯ**

# ГЕРОЙ И СЮЖЕТ В ЛЮБОВНЫХ ЭПОСАХ

**5719.01- Фольклористика**

**АВТОРЕФАРАТ**

**диссертации на соискание ученей степени доктора философии по филологии**

**Нахчыван-2013**